# Qərbi Azərbaycana qayıdacağıq

**Erməni vandalları 1872-1881-ci illərdə Türkiyədə gizli erməni təşkilatı, 1887-ci ildə "Hncaq", 1890-cı ildə "Daşnaksütyun" partiyasını yaratmışlar. Haylar "böyük Ermənistan" yaratmaq uğrunda Türkiyə və İrana qarşı mübarizə aparan Rusiya hökumətinə müxtəlif yollarla köməklik onların məğlubiyyətinə çalışmışlar.**





Ermənilərin bu "xidməti"nin əvəzində Rusiya hökuməti 1828-ci ildə İrandan 40 min, 1829-cu ildə 90 min erməni ailələrini gətirib İrəvan-Naxçıvan xanlığı ərazisinə yerləşdirdi. Müsəlmanların bayram günü, yəni 20 mart 1828-ci ildə həmin xanlıqların ərazisini erməni vilayəti elan etdi. Halbuki, o vaxta qədər bu vilayətdə 1114 kənddən ancaq 62-sində erməni yaşayırdı. Qəsdən olaraq dağıdılmış, əhalisi qırılmış 359 müsəlman kəndində ermənilər məskunlaşdırıldı. Bunun nəticəsidir ki, artıq 1918-ci ildə ərazidə yaşayan əhalinin sayı ermənilər 775, azərbaycanlılar 575 min nəfər təşkil edirdi.

Qərbi Azərbaycandakı soydaşlarımız İrana, Türkiyəyə qaçmalı oldular. Erməni daşnakları 1917-ci ilin may ayında Qarsda 35 min nəfərlik qoşun korpusu yaradaraq onları üç diviziyaya böldülər. Diviziyalara Avisyan başçı təyin olundu. Avisyan İrəvanətrafı rayonlarda, Silikyan Göyçə gölü ətrafında, "tayqulaq Andranik" isə Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və sair yerləri zəbt etməli idi. Qeyd olunan ərazilərin kəndlərini dağıdıb, əhalisini qılınca çəkib qırmağa, damlara doldurub yandırmağa başladılar.

Andranikin diviziyası Zəngəzurda bir çox kəndləri dağıdıb viran qoydu, günahsız insanları diri-diri yandırdılar. Basarkeçər rayonunun Şişqaya, Bala Məzrə, Kərkibaş, Subatan və digər kəndlərində ermənilər analoqu olmayan qırğınlar törətdilər. Elə buna görə də erməni hərbi birləşmələrinin başçıları keşişlər tərəfindən "Qızıl xaç" mükafatına layiq görüldülər.

İrəvanda 20 min müsəlman əhali amansızlıqla qətlə yetirildi. Tək Vedi rayonunda 45 kənd ermənilər tərəfindən dağıdıldı, haylar Azərbaycan türklərinə qarşı Vedi rayonunun Millidərə, Çanaxçıdərə ərazisində əhalini işgəncə ilə öldürdülər. Bəyazit rayonunun Bığlı, Ağqala, Ağzıbir kəndlərinin əhalisi qışın boranlı-çovğunlu günlərində Göyçə gölünün buzlu sularında qərq oldular. 1917-ci ilin may ayında Türkiyə ermənilәri Stepan Şaumyanı özlərinə başçı seçdilər. Lenin isə 1917-ci ilin 29 dekabrında dekret qəbul edib erməniləri müsəlmanlardan müdafiə adı ilə qoşun hissəsi təşkil etməyə şərait yaratdı. Şaumyan özü türkiyəli Hamazaspın komandanlığı ilə 2500 nəfərlik diviziya təşkil etdi. Çox keçmədən Bakıda, Qərbi Azərbaycanda və digər ərazilərdə müsəlmanlara qarşı qanlı aksiyalar həyata keçirildi.

1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Qərbi Azərbaycandan İran və Türkiyəyə köçmüş soydaşlarımızın demək olar ki, yarıdan çoxu ata-baba yurdlarına döndü. Onlar qayıdanda görürlər ki, əlləri ilə ucaltdıqları evlərin çoxunda ermənilər yerləşdirilib. Sovet hakimiyyəti illərində Ermənistan respublikasına rəhbərlik edən millətçi daşnaklar azərbaycanlılara qarşı öz şovinist niyyətlərini davam etdirir, kadrların yerləşdirilməsində ayrı-seçkiliyə yol verir, azərbaycanlıların məişət şəraitinin yaxşılaşdırılmasına ögey münasibət bəsləyirdilər.

XX əsrin 80-ci illərində ermənilər daha da azğınlaşdılar. Onlar Aqanbekyanın köməkliyi ilə Mixail Qorbaçovun həyat yoldaşı Raisaya çox qiymətli brilyant daş-qaş bağışladılar. Sonra isə Dağlıq Qarabağ məsələsini ortaya atdılar. İrəvanda, Moskvada Azərbaycan xalqına qarşı xəyanət toru hazırlandı. Fransadakı erməni diasporu da Ermənistandakı xaç qardaşlarına arxa-dayaq durdu. Millətçi ünsürlərin satqınlığı sayəsində 1988-ci ildə Qərbi Azərbaycandakı soydaşlarımız yenidən deportasiyaya məruz qaldı, azərbaycanlılar min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salındı. Qədim Oğuz ellərində bir nəfər olsun belə azərbaycanlı qalmadı. 1997-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən 1948-1953-cü illərdə Qərbi azərbaycanlıların öz doğma torpaqlarından deportasiyasına siyasi qiymət verildi.

Azərbaycan əraziləri 30 ilə yaxın bir müddətdə erməni şovinistlərinin işğalı altında qaldı. Ən nəhayət, qüdrətli Azərbaycan ordusu bu ədalətsizliyə son qoydu. Xalqımız elliklə Vətənin müdafiəsinə qalxdı, 2020-ci ildə cəmi 44 gün ərzində ermənilərin ordusu darmadağın edildi, ermənilər ağ bayraq qaldıraraq təslim oldular. Torpaqlarımız işğaldan azad olundu. Bu tarixi zəfərdən sonra əsas hədəfimiz Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşdırılmasıdır. Bu gün hamı vətən, yurd həsrəti ilə yaşayır. Tezliklə, köç karvanları qəribsəmiş Oğuz ellərinə dönəcək. Hazırda Qərbi Azərbaycan İcmasında bu məqsədlə geniş iş aparılır, haqq səsimiz dünya xalqları tərəfindən dəstəklənir. Qürur hissi ilə qeyd etmək olar ki, dünyanın bir çox ölkələrində Qərbi Azərbaycan cəmiyyətləri yaradılmışdır.

Qürbətdə yaşasam da, hər gün yuxumda doğma kəndim Qanlını görürəm. Ayaq izlərim qalmış yurd yerlərini düşünəndə qəlbim od tutub yanır, o yerlərə dönəcəyim günləri düşünürəm...

**Zimistan MÜRSƏLOV,**
**Moskva şəhəri, iş adamı.**